AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL İNSTİTUTU

# TAM ORTA TƏHSİL PİLLƏSİNİN TƏMAYÜLLÜ SƏVİYYƏSİ ÜÇÜN
# ƏDƏBİYYAT
# FƏNNİ ÜZRƏ DƏRSLİK KOMPLEKTİNİN
## KONSEPSİYASI

BAKI -2022

## 1. Təmayüllü siniflərdə ədəbiyyat təliminin məqsəd və vəzifələri

Təmayüllü siniflərdə təlim – X-XI siniflərdə təhsilin elə differensiasiya (fərqləndirmə) və fərdiləşdirmə vasitəsidir ki, tədris prosesinin məzmunu, quruluşu və təşkilində şagirdlərin tələbat, maraq, meyil və bacarıqlarını daha əhatəli nəzərə almağa, şagirdlərinin inkişaf səviyyəsinə uyğun təlim şəraiti yaratmağa imkan verir.

Təmayüllü siniflərdə təlimə keçid imkan verir ki:

- ədəbiyyat təliminin məzmunu fərqləndirilsin, fərdi təhsil proqramlarının tərtibinə şərait yaradılsın;
- ədəbiyyat fənninin dərindən öyrənilməsi təmin edilsin;
- cəmiyyətin və əmək bazarının tələbatları nəzərə alınsın;
- ümumi və peşə təhsili arasında varislik və davamlılıq təmin olunsun.

Təmayüllü siniflərdə “Ədəbiyyat" fənnini dərindən öyrənmək sadəcə materialın genişləndirilməsini nəzərdə tutmur. “Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası”nda qeyd edilir ki, Azərbaycan Respublikasının inkişaf konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infrastrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsilin inkişafında mühüm strateji istiqamətlərdən biri, təhsil sahəsində insan resurslarının müasirləşdirilməsini nəzərdə tutur. Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir... Hazırda təhsil iqtisadiyyatda tələb olunan bilik

və bacarıqların aşılanması ilə bərabər, vətəndaşın gələcək həyata və cəmiyyətə inteqrasiyasına hərtərəfli hazırlığı kimi vəzifələri yerinə yetirməlidir.

Hazırda ümumtəhsil məktəblərində ədəbi təhsil sisteminin keyfiyyət göstəricilərinin yaxşıladırılmasına, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı təlim metodologiyasının, ədəbiyyat fənn kurikulumunun təkmilləşdirilməsinə ehtiyac vardır... təfəkkürün və şəxsiyyətin inkişafına yönəlmiş, təhsilalanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim, qiymətləndirmə metodologiyası və resurslarının inkişafı, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqları baxımından istedadın erkən yaşdan aşkar olunması, inkişafı və dəstəklənməsi üzrə sistemin yaradılması mühüm hədəf kimi göstərilir. (https://president.az/articles/9779/print )

Ədəbiyyatdan təmayüllü təhsil ideyasının həyata keçirilməsi əsas təhsil pilləsinin məzununu təmayül sahəsinə münasibətdə məsuliyyətli seçimə sövq edir. Pedaqoji, psixoloji, məlumatverici və təşkilati fəaliyyət sistemi olan təmayüllü siniflərdə təhsillə bağlı şagird təhsili davam etdirməyin, təhsil maraqlarını və imkanlarını anlamaq və qiymətləndirməyin mümkün yolları haqqında məlumat almalı və məsuliyyətli bir qərar verməlidir.

- Təmayüllü siniflərdə ədəbiyyat təliminin **məqsədi** ədəbi təhsil proqramının yüksək səviyyədə mənimsənilməsi, əsasən, şagirdlərin sonrakı peşə təhsilinə hazırlaşmalarına, fərdi qabiliyyətlərini inkişaf etdirmələrinə, fənn üzrə bilik, bacarıq və fəaliyyət üsullarına sistemli yiyələnmələrinə, şagirdlərin humanitar inkişafında irəliyə doğru növbəti addım atmasına nail olmaq, şifahi və yazılı nitq bacarıqlarını müxtəlif situasilarda tətbiq etmək bacarığını formalaşdırmaqdır.

**Vəzifələr:**

- bədii əsərdə forma və məzmunun ayrılmaz əlaqəsini müəyyənləşdirmək, onu ədəbi-tarixi hadisə kimi qavramaq, dəyərləndirmək bacarığını zənginləşdirmək;

  ədəbiyyat tarixi və nəzəriyyəsi üzrə biliklərdən istifadə etməklə ədəbi-tarixi dövrü, müəllifin idealını səciyyələndirmək bacarığını formalaşdırmaq;

- bədii ədəbiyyatı və zəruri ədəbiyyatşünaslıq biliklərini, təhlil , dəyərləndirmə bacarıqlarını dərindən mənimsətməklə şagirdlərin ədəbi təhsil, tərbiyə və bədii, yaradıcı, tənqidi, məntiqi təfəkkürünün inkişafına nail olmaq;
- incəsənətin bir növü olmaqla söz sənətinin – milli ədəbiyyatımızın tarixi inkişaf qanunauyğunluqları barədə təsəvvür yaratmaq;
- bədii əsəri emosional-obrazlı qavramaq, ifadəlii oxumaq, yaradıcı dəyərləndirmək bacarıqlarını inkişaf etdirməklə mütaliə mədəniyyəti aşılamaq;
- yazıçının tərcümeyi-halının, yaradıcılığının dərindən öyrənilməsi əsasında dünyagörüşü, şəxsiyyəti, həyat mövqeyi, yaradıcılıq amalı, ədəbi-estetik baxışları haqqında təsəvvür formalaşdırmaq;
- ədəbi-tarixi prinsip əsas götürülməklə müxtəlif dönəmlərin ədəbi-mədəni vəziyyəti üçün səciyyəvi olan xüsusiyyətlərin mənimsədilməsi, ədəbi prosesin inkişaf yolu barədə təsəvvürün formalaşdırılması.
- ədəbi əsəri yaradıcı oxumaq, məzmun və forma vəhdətində təhlil etmək bacarığını inkişaf etdirmək;

- incəsənətin bir növü olmaqla ədəbiyyatın özəlliyinin, bədii dilin imkanlarının dərk edilməsi zəminində ədəbi əsəri real gerçəkliyin nümunəsi kimi təhlil etmək üzrə bacarıqların formalaşdırılması;
- Əlavə mənbələr üzərində işləmək, tədqiqatçılıq bacarıqlarını inkişaf etdirmək;
- Şifahi və yazılı nitqi inkişaf etdirmək, ədəbi mövzu, problem, sənətkarın yaradıcı şəxsiyyəti ilə bağlı öz mövqeyini əsaslandırmaq;
- milli və bəşəri dəyərlərə yiyələnmək, qazanılmış həyati bacarıqları real həyati situasiyalarda tətbiq etmək;
- milli ədəbiyyatının özünəməxsusluğu və dünya ədəbiyyatında əhəmiyyətini göstərmək;
- ədəbiyyatın incəsənətin digər növləri ilə qarşılıqlı əlaqəsini müəyyənləşdirmək;
- ədəbi-tarixi proses, söz sənətinin inkişaf meyilləri, sənətkarın həyat və yaradıcılığı, bədii, ədəbi-tənqidi əsərlər barədə şifahi və yaılı təqdimatlar hazırlamaq, diskussiya və polemikalarda fəal iştirak etmək, öz mövqeyini əsaslandırmaq bacarığı aşılamaq;

Ümumi təhsil standartlarına uyğun olaraq, təmayüllü siniflərdə təhsilin əvvəlində məktəblilər klassik ədəbiyyatımız haqqında ümumi təsəvvürə malikdir. Bu təsəvvürlər təmayüllü siniflərdə daha da dərinləşdirilməli, məktəblilərin bədii mətnlə yanaşı, əlavə mənbələr - ədəbi-tənqidi məqalələr, tədqiqat əsərlərindən müvafiq hissələr üzrə araşdırmalar aparmaqla tamamlanmalıdır. Tədris ilinin sonunda təmayüllü sinfin şagirdləri bədii əsərləri standartlar səviyyəsində müstəqil oxumağı, qavramağı, təhlil və şərh etməyi, qiymətləndirməyi bacarmalıdır.

Təmayüllü siniflərdə şagirdlərin müstəqil işi, mövzu, problem və s. bağlı fəaliyyətləri fərqli istiqamətlər üzrə inkişaf etdirilməlidir. Məktəblilərdə təmayül üzrə təhsil və özünütəhsilə motivasiya yaradılmalı, öyrəndiklərini obyektiv qiymətləndirmək bacarığı formalaşdırılımalıdır.

Fənn standartlarının təmayül səviyyəsi şagirdin tədris prosesində şəxsi tələbat və maraqlarının nəzərə alınmasına, onun sonrakı peşə təhsili və ya peşə fəaliyyətinə hazırlaşmasına yönəlmişdir. Bununla yanaşı, istər təmayül siniflərdə, istərsə də təlimin təməl standartlar üzrə aparıldığı siniflərdə şagird şəxsiyyətinin mənəvi-əxlaqi və estetik inkişafında aparıcı rol oynayan ədəbi təhsilin ənənəvi paradiqması qorunub saxlanılır. Əsas fərqlər təmayülləşdirilmiş, ixtisaslaşdırılmış ədəbi təhsilin məzmununda, eləcə də bu istiqamətin məzunlarına qoyulan tələblərin xarakter və keyfiyyətində özünü göstərir:

• humanitar fənlərdəki ədəbi təhsil oxucu təfsirinin (tarixi, ədəbi və mədəni kontekstdə) ikitərəfliliyini təşkil edir;

• humanitar profildə bədii ədəbiyyatın, ədəbiyyat tarixinin öyrənilməsi elmi, tənqidi və bədii şərhlər də daxil olmaqla, baza səviyyəsindən daha geniş ədəbi mənbələrin cəlb edilməsi ilə aparılır.

**Təmayülləşmə səviyyəsində ədəbiyyatın öyrənilməsi nəticəsində şagird bilməlidir:**

- şifahi xalq ədəbiyyatının mahiyyətini və həyatı əksetdirmə özünəməxsusluğunu ;
- öyrənilən ədəbi əsərlərin məzmununu;
- klassik və müasir yazıçıların həyat və yaradıcılığını, yaradıcılıq təkamülündəki mərhələləri, əsərlərindəki həyat həqiqətlərinin bədii əksetdirmə üsullarını, sənətkarlıq xüsusiyyəitlərini;
- əsərin tarixi və mədəni müstəvidə qavranılması, təhlili və qiymətləndirilməsini;

-ədəbi-tarixi dövrlərin səciyyəvi xüsusiyyətlərini;

**Təmayülləşmə aşağıdakı bacarıqların təkmilləşdirilməsini əhatə edir:**

- Bədii nümunələrin mövzusunu, ideyasını bağlı olduğu dövrün sosial-siyasi vəziyyəti ilə əlaqəli təhlil etməyi və nəticə çıxarmağı;
- fakt və hadisələrə əsaslanmaqla yazıçının həyatı və yaradıcılığında əhəmiyyətli dönəmlərin səbəbini aydınlaşdırmağı və münasibət bildirməyi;
- ədəbi –tarixi dövrləri səciyyələndirən başlıca cəhətləri səciyyələndirməyi;
- ədəbi-tarixi, mədəni həyatdakı mühüm dəyişikliklərin mahiyyətini və səbəblərini aydınlaşdırmağı;
- əsərin təhlilində zəruri mənbələrdən, ədəbiyyatşünaslıq terminlərindən, nəzəri anlayışlardan istifadə etməyi;
- klassik sənətkarların yaradıcılığına yazıb-yaratdığı dövr, mühitin təsirini aydınlaşdırmağı;
- ədəbi əsərlərin müqayisəli təhlilini, həmçinin müxtəlif əlavə bədii, tənqidi və elmi mənbələrdən istifadə ilə şərhlər verməyi;
- yazıçının əsərlərinin mövzu, ideya, obrazlar sistemi, dil, üslub baxımından təhlilini;
- ədəbi- tarixi dövr, sənətkarın həyat və yaradıcılığı, ayrı-ayrı əsərləri üzrə esse, inşa yazmağı;
- ədəbi-tarixi icmal ,sənətkarın həyat və yaradıcılığı, əsərdə qoyulmuş mövzu, problem üzrə şifahi təqdimat hazırlamağı.

## 2. Təmayüllü siniflər üçün hazırlanacaq ədəbiyyat dərslik komplektinin hədəfləri

Tam orta təhsilin təmayül pilləsi üçün ədəbiyyat fənni üzrə dərslik komplektinin metodik konsepsiyasında, məzmun və quruluşunda müasir yanaşmalar, təmayül siniflərdə təhsilin özünəməxsusluğu, məqsəd və vəzifələri, fənn standartları nəzərə alınmalıdır. Bizim yanaşmalarda şagirdlərdə aşağıdakı bacarıqların formalaşdırılması nəzərdə tutulur.

1. *Mövzu ilə bağlı problemin müəyyənləşdirilməsi.* Mövzu ilə bağlı elmi, ədəbi, mənəvi-estetik problemin formalaşdırılması, dərslik və əlavə mənbələrdən, fərqli metodlardan istifadə etməklə araşdıma aparılması üçün zəmin yaradılması. Problemin mürəkkəblik dərəcəsi nəzərə alınmalı, şagirdlərin hazırlıq səviyyəsinə uyğun olmayan ideya və konsepsiyalara yer verilməməlidir.

2. *Tədqiqatçılıq*. Qoyulmuş problemin həllinə yaradıcı yanaşılması, tədqiqatın məqsədinin dəqiqləşdirilməsi, əlavə mənbələrin və araşdırmanın mərhələlərinin müəyyənləşdirilməsi, təhlil, nəticələrin əsaslandırılması, dəyərləndirilməsi, təqdimatın hazırlanması. Əməkdaşlıq, kommunikativlik, yaradıcılıq, tənqidi təfəkkür, informasiya texnologiyalarından istifadə, problemin həlli yollarının axtarılması, müstəqillik, mənimsəmə bacarıqlarının inkişafı diqqət mərkəzində saxlanılır.

3. *Ədəbiyyatşünaslıq üzrə mənbələrdən istifadə*. Ədəbiyyat fənni üzrə qazanılmış ədəbi-nəzəri biliklərdən istifadə etməklə ədəbi-tarixi prosesi səciyyələndirmək, öz mülahizələrini icmal mövzuları, ayrı-ayrı sənətkarların həyat və yaradıcılığından, bədii əsərlərdən, ədəbi-tənqidi materiallardan, digər fənlər üzrə mənimsənilmiş biliklərdən istifadə etməklə əsaslandırmaq, şifahi və yazılı təqdim etmək.

## 4. Tam orta məktəbin X-XI siniflərində ədəbiyyat təliminin məzmunu və metodik xarakterli problemlər və onların aradan qaldırılma yolları

• ***Ədəbiyyat fənn kurikulumunda uyğun siniflər üzrə standartlar, onların məzmunu və formalaşdırılan ədəbi-nəzəri anlayışlar (açar sözləri), habelə tədris planı, dərslik və metodik vəsaitlər təhlil edildikdə aşağıdakılar aşkar olundu:***

X-XI siniflər üzrə məzmun standartları tədrisinə həftədə 2 saat ayrılan baza tam orta məktəbləri üçün nəzərdə tutulmuşdur. Həftədə 5 saat nəzərdə tutulan təmayül siniflərin ədəbiyyat fənn kurikulumlarında dərinləşdirilmiş ədəbiyyat kursu üçün standartların tətbiqinə ehtiyac vardır. Burada reallaşdırılması nəzərdə tutulan standartlarda şagirdlərə veriləcək bilik və formalaşdırılacaq bacarıqlar ədəbiyyat tarixinin yeni dövrləşdirilməsinə uyğun olan "İcmal" mövzuları, sənətkarın həyat və yaradıcılığının öyrənilməsini, şifahi və yazılı nitq kimi bölmələri əhatə edir.

X-XI siniflər üzrə həftəlik 2 saat üçün hazırlanmış dərsliklərdə verilən təlim materialları və təklif edilmiş əlavə mənbələr reallaşdırılmalı olan tarixi-ədəbi prinsipin tələbərini tam ödəmir. Zəngin və çoxəsrlik ədəbiyyatımızın ayrı-ayrı mərhələlərində özünü qabarıq göstərən əhəmiyyətli ədəbi proseslər, böyük sənət uğurları qazanmış görkəmli sənətkarların yradıcılığı, mühüm nəzəri anlayışlar, söz sənətinin bədii-estetik tərbiyə imkanları və s. qədərincə əhatə edilməməmşdir. Məhz bu, təmayül siniflər üçün yeni məzmun standartlarının əlavə edilməsini, mövcud olanların təkmilləşdirilməsini ciddi vəzifə kimi qarşıya qoyur.

Ümumtəhsil məktəblərində ədəbiyyat tarixinin AMEA tərəfindən təsdiq olunmuş yeni dövrləşdirmə konsepsiyasına uyğun olaraq, ədəbi-tarixi icmal materiallarınıın, sənətkarların həyat və yaradıcılığının, klassik və müasir ədəbiyyat nümunələrinin öyrənilməsinə yeni yanaşma həyati zərurətə çevrilmişdir. Bu, eyni zamanda ədəbi- tarixi proseslərin, bədii əsərlərin məzmunun dərindən öyrənilməsi və təhlilini tələb edir.

Bu baxımdan klassik ədəbi-bədii irsin müasir tələblər səviyyəsində öyrənilməsi, onun gənc nəslə tərbiyəvi təsir imkanlarının reallaşdırılması mühüm problem kimi qarşıda durur. Söz sənəti nümunələrinin, ədəbi hadisələrin məktəb təhlilinin, bədii əsərlərin müasir yozumunun əsasında zamanın sınağından çıxmış dəyərləndirmələr, ədəbiyyatşünaslıq elminin son nailiyyətlərinə əsaslanan elmilik durmalıdır. Təmayüllü siniflərdə ədəbiyyat təlimi sənətkarların həyat və yaradıcılığının, Azərbaycan ədəbiyyatının özünəməxsus inkişaf yolunun, onun humanist mahiyyətinin şagirdlər

tərəfindən dolğun şəkildə dərk edilməsinə istiqamətlənməlidir. Bu, müasir dövrün yaradıcı, inkişafetdirici təlim paradiqmasına, təhsilin humanistləşdirilməsi ideyasına uyğundur.

Təmayüllü 10-11-ci siniflərdə ayrı-ayrı dövrlər üzrə icmalların, ədəbi prosesi təmsil edən sənətkarların yaradıcılığının dərindən öyrənilməsi, məntiqi, tənqidi, yaradıcı təfəkkürü inkişaf etdirən fərqli tapşıırıqlardan, yeni təlim texnologiyalarından məqsədyönlü istifadə şagirdlərə ədəbiyyatımızda bədii, fəlsəfi və üslub meyillərinin müxtəlifliyini görməyə, mütaliə bacarıqlarını, bədii əsərləri müstəqil təhlil etmək və dəyərləndirmək bacarığını inkişaf etdirməyə, nəticə etibarilə onların ədəbi təhsil, tərbiə və inkişafına nail olmağa imkan verəcəkdir. Təmayülləşmə inklüziv təlim, fərdi yanaşma, qiymətləndirmə meyarlarını optimal tətbiq imkanlarını genişləndirir, müəllim yaradıcılığına, dərslik komplektindən və əlavə mənbələrdən istifadəyə münbit zəmin yaradır.

Tövsiyə olunan təhsil texnologiyaları:

- İnteraktiv təlim texnologiyası;
- Problemli təlim texnologiyası;
- Keys texnologiyası;
- Modul texnologiyası;
- Layihələrlə iş texnologiyası;
- Əməkdaşlıq texnologiyası;
- İnformasiya və kommunikasiya texnologiyaları.

**Cədvəl 1. Tam orta məktəbin təhsilin təmayüllü pilləsinin X sinfində ədəbiyyat fənn standartlarının müqayisəli təsv**iri

| X sinif | | |
|---|---|---|
| **1** | **Ədəbiyyat və həyat həqiqətləri** | |
| **1.1.** | **Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.** | |
| **№** | **Təhsilin tam orta məktəb pilləsi üzrə mövcud əsas və alt standartlar** | **Təhsilin təmayüllü pilləsi üzrə təkmilləşdirilmiş alt standartlar** |
| 1.1.1. | Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) tanış olmayan sözlərin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | |
| 1.1.2. | İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili məqsədi ilə istifadə edir. | |
| 1.1.3. | Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələri hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | |
| 1.1.4. | Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir. | Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakterinin və əsərin ideyasının aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları, hadisələri müəyyənləşdirir və izah edir. |

| | | |
|---|---|---|
| 1.1.5. | Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafora, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir. | Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb quruluşu olan əsərlərdə bədiilik yaradan vasitələri ( məcazları, ədəbi priyomları və s.) izah edir. |
| 1.1.6. | | Yazıçının həyatı və yaradıcılığı üçün önəmli olan fakt və hadisələri izah edir. |
| 1.1.7. | | Ədəbi-tarixi (icmal) məlumatlardakı mühüm məqamları izah edir. |
| **1.2.** | **Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.** | |
| 1.2.1. | 1.2.1. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir. | |
| 1.2.2. | Davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər surətlərin mühakimələrinə əsaslanmaqla obrazları təhlil edir. | Çoxsüjetli ədəbi nümunələrdəki epizodlardan (hadisə və s.) istifadə etməklə, davranış və əməllərinə, başqaları ilə qarşılıqlı münasibətlərinə, yazıçının mövqeyinə, digər obrazların mühakimələrinə əsaslanmaqla obrazların xarakterini və əsərin ideyasını aydınlaşdırır. |
| 1.2.3. | Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın yaradılmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. | Müxtəlif vəznli şeirlərdə, mürəkkəb quruluşlu ədəbi nümunələrdə fərqli vasitələrin ( məcazların və s.) bədiiliyin yaranmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir. |

| | | |
|---|---|---|
| 1.2.4. | Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri baxımından təhlil edir və nəticə çıxarır. | Bədii nümunələrin mövzusunu, ideyasını bağlı olduğu dövrün sosial-siyasi vəziyyəti ilə əlaqəli təhlil edir və nəticə çıxarır. |
| 1.2.5. | | Fakt və hadisələrə əsaslanmaqla yazıçının həyatı və yaradıcılığında əhəmiyyətli dönəmlərin səbəbini aydınlaşdırır və münasibət bildirir. |
| 1.2.6. | | Ədəbi-tarixi, mədəni həyatdakı mühüm dəyişikliklərin mahiyyətini və səbəblərini aydınlaşdırır, münasibət bildirir. |
| 2 | **Şifahi nitq** | |
| **2.1.** | ***Şifahi nitq bacarıqları nümayiş etdirir.*** | |
| 2.1.1. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında müstəqil fikirlərini ifadə edir. |
| 2.1.2. | Obrazların nitqinə istinad edərək yazıçı mövqeyi ilə bağlı fikirlərini əsaslandırır. | Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyinə, təsvir olunanlara münasibətini əsaslandırır. |
| **2.2.** | **Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.** | |
| 2.2.1. | Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə tənqidi münasibətini əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. | Müzakirələrdə mövzuya, problemə, yazıçı mövqeyinə münasibətini faktlarla əsaslandırır, fərqli fikirlərə dözümlülük nümayiş etdirir. |
| **3** | **Yazılı nitq** | |

| 3.1. | Yazılı nitq bacarıqları nümayiş etdirir. | |
|---|---|---|
| 3.1.1. | Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan istifadə edir. | Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi əsaslı faktlardan istifadə edir. |
| 3.1.2. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin qəhrəmanlarına, ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| 3.1.3. | 3-3,5 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məruzə) yazır. | |

| XI sinif | | |
|---|---|---|
| 1 | Ədəbiyyat və həyat həqiqətləri | |
| 1.1. | Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir. | |
| № | Təhsilin tam orta məktəb pilləsi üzrə mövcud əsas və alt standartlar | Təhsilin təmayüllü pilləsi üzrə təkmilləşdirilmiş alt standartlar |

| | | |
|---|---|---|
| 1.1.1. | 1.1.1. Müxtəlif vəznli şeirlərdə (heca, əruz, sərbəst) və süjetli əsərlərdə ( hekayə, povest, roman, dram, komediya, faciə, poema) tanış olmayan sözlərin, ifadələrin mənasını mənşəyinə və işlənmə məqamına görə izah edir. | |
| 1.1.2. | 1.1.2. İfadəli oxudan müxtəlif ədəbi növdə olan əsərlərin emosional-obrazlı qavranılması, təhlili və qiymətləndirilməsi məqsədi ilə istifadə edir. | |
| 1.1.3. | 1.1.3. Mürəkkəb süjetli və kompozisiyalı bədii nümunələrdə əhvalat və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, mətni hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (geniş, yığcam, yaradıcı) nağıl edir. | |
| 1.1.4. | 1.1.4. Müxtəlif ədəbi növ və janrda olan əsərlərdə (poema, hekayə, povest, roman, dram, komediya, faciə) əksini tapan mühüm milli-mənəvi, başəri dəyərlərə əsaslandırılmış münasibət bildirir. | Çoxsüjetli ədəbi nümunələrdə obrazların xarakter, davranış, əməllərinin və əsərin ideyasının aydınlaşdırılmasında əhəmiyyətli olan epizodları (hadisələri və s.) müəyyənləşdirir və izah edir. |
| 1.1.5. | Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli və kompozisiyalı ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafora, metonimiya, sinekdoxa, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, kinayə (sarkazm), inversiya) müəyyənləşdirir. | Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb quruluşu olan əsərlərdə bədiilik və obrazlılıq yaradan vasitələri ( məcazları, ədəbi priyomları və s.) izah edir). |
| 1.1.6. | | Yazıçının həyatı, yaradıcılığı üçün önəmli olan fakt, hadisə və social-siyasi durumu izah edir. (Bunu əlavə edək). |

| | | |
|---|---|---|
| 1.1.7. | | Bədii ədəbiyyatın inkişafına istiqamət verən mühüm amilləri ədəbi-tarixi (icmal) məlumatlarda müəyyənləşdirir və izah edir. |
| **1.2.** | **Bədii nümunələrin təhlili üzrə bacarıqlar nümayiş etdirir.** | |
| 1.2.1. | Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli əsərləri (poema, hekayə, povest, roman, dram, komediya, faciə) kompozisiya, dil, üslub baxımından təhlil edir. | |
| 1.2.2. | Obrazları xarakter və əməlləri, yaşadıqları dövrün sosial-siyasi şəraiti və əxlaqi-etik dəyərləri ilə əlaqəli səciyyələndirir, müqayisələr aparır. | Çoxsüjetli ədəbi nümunələrdəki epizodlardan (hadisə və s.) istifadə etməklə obrazların xarakter, davranış və əməllərini, əsərin ideyasını aydınlaşdırır və münasibət bildirir. |
| 1.2.3. | Müxtəlif vəznli (heca, əruz, sərbəst) şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrinin obrazlılığın təmin edilməsindəki roluna əsaslandırılmış münasibət bildirir. | Müxtəlif vəznli şeirlərdə, mürəkkəb quruluşlu ədəbi nümunələrdə fərqli vasitələrin (məcazların və s.) bədiiliyin və obrazlılığın yaranmasındakı rolunu aydınlaşdırır və münasibət bildirir). |
| 1.2.4. | Bədii nümunələrin mövzusunu, ideyasını, başlıca problemini, konfliktini dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə münasibət bildirir və qiymətləndirir. | Bədii əsərin mövzusunu, ideyasını, başlıca problemini, konfliktini dövrün ictimai-siyasi, mənəvi dəyərləri kontekstindən çıxış etməklə səciyyələndirir və dəyərləndirir. |
| 1.2.5. | | 1.2.5. Fakt, hadisə və sosial duruma əsaslanmaqla yazıçının həyatı və yaradıcılığında əhəmiyyətli dəyişikliklərin səbəbini aydınlaşdırır və münasibət bildirir. |

| | | |
|---|---|---|
| 1.2.6. | | 1.2.6. Bədii ədəbiyyatın inkişafına istiqamət verən mühüm amillərə əsaslandırılmış münasibət bildirir. |
| 2 | **Şifahi nitq** | |
| **2.1.** | ***Şifahi nitq bacarıqları nümayiş etdirir.*** | |
| 2.1.1. | 2.1.1. Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında bədii-emosional və obrazlı ifadələrdən istifadə edir. | Müxtəlif mənbələrdən topladığı materiallara əsaslanmaqla təqdimat və çıxışlarında müstəqil fikirlərini ifadə edir. |
| 2.1.2. | 2.1.2. Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçı mövqeyi ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. | Dil və üslub xüsusiyyətlərinə istinad edərək yazıçının mövqeyi, təsvir olunanlara münasibəti ilə bağlı mühakimələrini faktlarla əsaslandırır. |
| **2.2.** | **Bədii nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.** | |
| 2.2.1. | 2.2.1. Müzakirələrdə mövzuya, problemə, yazıçının mövqeyinə tənqidi münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. | Müzakirələrdə bədii nümunələrə və dinlədiklərinə münasibətini əsaslandırır, dinləyicilərin rəyini nəzərə alır, mimika və jestlərdən məqsədyönlü istifadə edir. |
| **3** | **Yazılı nitq** | |
| **3.1.** | **Yazılı nitq bacarıqları nümayiş etdirir.** | |
| 3.1.1. | Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi inandırıcı faktlardan, şəxsi təəssüratlarından istifadə edir. | Yaradıcı yazıların məzmununa uyğun üslub müəyyənləşdirir, müxtəlif mənbələrdən seçdiyi etibarlı faktlara və şəxsi mühakimələrinə geniş yer verir. |

| | | |
|---|---|---|
| 3.1.2. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. | Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, obrazlarına, probleminə, bədii xüsusiyyətlərinə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır. |
| 3.1.3. | 3,5-4 səhifə həcmində nəqli, təsvir, təhlil xarakterli mətnlər (ədəbi və sərbəst mövzuda inşa, esse, məqalə, məruzə) yazır. | |

• ***Problemin metodik kontekstdən təhlili aşağıdakıları aşkara çıxarmağa imkan verdi:***

1. X-XI siniflər üçün hazırlanmış dərsliklərdə tarixi-ədəbi məlumat (icmal materialları), ayrı-ayrı sənətkarların həyatı, yaradıcılıq yolu barədə əks olunanlar, bədii əsərlərin təhlili, nəzəri anlayışların şərhi və s. təmayül siniflər üçün hazırlanacaq dərsliklər üçün məqsədyönlü deyildir. Məzmunun zənginləşdirilməsi ilə yanaşı, sual və tapşırıqların, şagirdlərin müstəqil işləmələri üçün layihələrin təmayül siniflərin dərsliklərinə bir sistem şəklində daxil edilməsi zəruridir.

2. Bu şəkildə yanaşma müəllim üçün metodik vəsaitin fərqli məzmunda və tələblər əsasında hazırlanmasına ciddi ehtiyac yaradır. Metodik vəsait müəllimin yaradıcı, şagirdin isə müstəqil fəaliyyət göstərməsinə genş imkan yaratmalıdır. Vəsait bir təlim texnologiyasının əsasında yaradılmamalıdır. Hər bir dərsdə ( tərcümeyi-hal materiallarının tədrisinə, tarixi-ədəbi məlumatın, bədii əsərin öyrənilməsinə, nitq inkişafına və s. həsr olunmuş) müxtəlif texnologiyaların qarşılıqlı əlaqədə tətbiqi yolları işlənilib hazırlanmalıdır.

**Hazırlayanlar: dos. S. Hüseynoğlu, dos. B. Həsənli, metodist müəllim A. Mustafayeva**